***İşğaldan azad edilmiş ərazilərimizdə aparılan yenidənqurma, abadlıq-tikinti işləri geniş vüsət alıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin ərazilərə səfərləri yeni müəssisələrin təməlqoyma, bəzilərinin isə açılış mərasimləri ilə yadda qalır. Dövlət başçımızın bugünlərdə reallaşan Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı da bunun şahidi olduq. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan Kəlbəcər rayonunda hərbi hissənin açılışında da iştirak etdi.***

Qürurverici haldır ki, Silahlı Qüvvələr Günü işğaldan azad edilmiş Kəlbəcər rayonunda qeyd edildi. Həmin gün Kəlbəcərdə komando qüvvələrinin hərbi hissəsi açıldı. Bu, artıq ikinci komando qüvvələrinin hərbi hissəsidir. Xatırladım ki, birinci belə bir hərbi hissə altı ay öncə Hadrutda açılmışdı. Dövlət başçımız açılış mərasimindəki çıxışında da bildirdi ki, komando qüvvələri bütün silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir. Kəlbəcər rayonunda hərbi hissənin açılması bir daha təsdiqləyir ki, biz istəyimizə nail oluruq və bundan sonra da olacağıq.

Artıq Qarabağ və Şərqi Zəngəzurun bərpası geniş vüsət alıb. Qarşıya qoyulan prioritet vəzifə, ilk növbədə, həmin ərazimizdə hərbi gücümüzün möhkəmləndirilməsidir. Ona görə də işğaldan azad edilmiş ərazilrimizdə hərbi hissələrin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasından 104 il keçir. Müsəlman şərqində ilk müstəqillik qazanan Azərbaycan Xalq Cümhuriyyəti yarandığı vaxtlardan ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. 1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman Korpusunun adı dəyişdirilərək nizami hərbi hissə – Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bununla da milli silahlı qüvvələrin yaradılmasının əsası qoyuldu. Cəmi 23 ay ömrü olan AXC süquta uğradıqdan sonra ordu quruculuğu prosesi dayandı.

# Ordumuz qürurumuzdur



1969-cu ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra məhz onun qətiyyəti və siyasi iradəsi nəticəsində ölkəmizdə milli hərbi kadrların hazırlanması prosesi başlandı. 1971-ci ildə Heydər Əliyev Azərbaycanda hərbi kadr hazırlayan məktəbin – Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi məktəbin açılmasına nail oldu. Bu məktəb fəaliyyətə başlayandan sonra gənclərin hərb peşəsinə marağı artdı. Respublikamızda zabit kadrların yetişdirilməsində bu hərbi məktəbin müstəsna rolu oldu. Məhz ulu öndər Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəbində təhsil almaları, eləcə də SSRİ-nin digər nüfuzlu hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsi mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində böyük işlər görülməyə başlanıldı. Müdrik şəxsiyyətin qətiyyətli siyasəti nəticəsində 1994-cü ildə Ermənistanla atəşkəs haqqında müqavilə imzalandıqdan sonra ordumuzun formalaşdırılması sürətləndi, silahlı qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırıldı.

Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olundu. Ulu öndər hərbi təhsil sisteminin inkişaf etdirilməsi və təkmilləşdirilməsinə xüsusi diqqət ayırırdı. 1999-cu il fevralın 20-də Heydər Əliyev Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır. 20 avqust 2001-ci il tarixli fərmana əsasən , Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər, Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik və Azərbaycan Hərbi Təyyarəçilər məktəbləri adlandırıldı.

1990-cı illərin ortalarından etibarən Azərbaycan NATO ilə əməkdaşlığa başladı. Əməkdaşlıq silahlı qüvvələrin modernləşməsinə, şəxsi heyətin müasir hərbi texnikalarından istifadə bacarığının yüksəlməsinə imkan yaratdı. 2001- ci ildən Azərbaycan NATO nun "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı" na qoşuldu. 2000-dən çox hərbiçimiz Beynəlxalq Sülhməramlı Qüvvələrin tərkibində Kosovoda, Əfqanıstan və İraqda təhlükəsizliyin təmin edilməsində yaxından iştirak etməyə başladı. Bunun nəticəsində, Azərbaycan Ordusu modern orduya çevrildi.

Müdafiə Sənayesi Nazirliyinin yaradılması və burada müxtəlif adda müdafiə təyinatlı məmulatların istehsal edilməsi nəticəsində Azərbaycan Ordusunun maddi-texniki bazası daha da genişləndirildi. Azərbaycan öz ordusunu özünün istehsal etdiyi müxtəlif təyinatlı silah-sursatla təmin etməyə başladı.

Cənab İlham Əliyev prezident seçildiyi ilk vaxtlardan Silahlı Qüvvələrin maddi texniki təchizatının yenilənməsinə, ordumuzun dünyanın ən müasir silahlarla təminatına, hərbiçilərimizin sosial – məişət məsələlərinə xüsusi diqqət ayırır. Bu gün Azərbaycanın sürətlə inkişaf edən hərbi sənayesi ordumuzu müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları ilə təchiz edir. Hazırda ölkəmizdə 1200-dən artıq hərbi silah-sursat istehsal olunur.

Azərbaycan Ordusu Qafqazın ən müasir, güclü ordusu hesab olunur. Respublikamız MDB məkanında Hava Hücumundan Müdafiə Qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Prezident, Ali Baş Komandan İlham Əliyev də bu məsələni xüsusi vurğulayıb: "Biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik". Doğrudan da, bu gün fəxrlə deyə bilirik ki, Azərbaycan Ordusu dünyanın ən güclülərindəndir.

Vətən müharibəsində qazandığımız şanlı Qələbədən sonra ordu quruculuğunda bir çox islahatlar aparıldı, işğaldan azad edilmiş ərazilərimizdə yeni hərbi hissələr yaradıldı. Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, komando hərbi hissəsi yaradıldı. 2021-ci ilin 24 dekabr tarixində Xocavənd rayonu Hadrut qəsəbəsində yeni yaradılmış hərbi hissənin açılışında iştirak edən dövlət başçımız belə hərbi hissələrin bundan sonra da yaradılacağını bildirdi. İndiyədək verdiyi bütün vədlərini layiqincə yerinə yetirən dövlət başçımız bir neçə gün öncə Kəlbəcər rayonuna səfəri zamanı yeni yaradılmış hərbi hissənin açılışında, həmçinin komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etdi. Bu, Hadrutda istifadəyə verilmiş birinci komando hərbi hissəsindən sonra ikincisidir. Bu, həm də İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesinin sürətlə getməsindən xəbər verir. Komando hərbi hissəsində yüksək təlim keçmiş, böyük iradə nümayiş etdirmiş və Vətən uğrunda canını, qanını fəda etməyə hazır olan oğullarımız xidmət edəcək.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində də mühüm işlər aparılır. Bu işlərin mütəşəkkil aparılması üçün 2022-ci ildə Milli Müdafiə Universiteti yaradıldı. Bu gün hərbi təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində də genişmiqyaslı işlər davam etdirilir. Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il 5 mart tarixli fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişikliklər edilib. Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv ediləmk onun maddi texniki bazasında iki müstəqil institut yaradıldı. Prezident İlham Əliyevin dünyada Ermənistanın işğalçı dövlət kimi tanınması istiqamətində apardığı uğurlu və qətiyyətli siyasəti 2020-ci ildə öz nəticəsini verdi. Azərbaycan Ordusu həmin il 27 sentyabr tarixində əks hücuma keçərək 44 gün ərzində işğalçı Ermənistan ordusunu darmadağın edərək şanlı Qələbə qazandı. İgid Azərbaycan oğullarının qəhrəmanlığı, şücaəti və şəhidlərimizin qanı, canı bahasına qazandığımız qələbəyə bütün dünya şahid oldu. Qırx dörd günlük müharibə zamanı xaricdəki bəzi qüvvələrin təhdidlərinə baxmayaraq, müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə qəhrəman ordumuz və Azərbaycan xalqı tarix yazdı.

Dünyanın bir çox mətbuat vasitələrində, eləcə də, ABŞ-in bir neçə hərbi məktəblərində Azərbaycan Ordusunun apardığı hərbi taktikanı öyrənərkən, belə bir nəticəyə gəlinib ki, ən güclü ölkənin ordusu belə Azərbaycan Silahlı Qüvvələri qarşısında tab gətirə bilməzdi. İkinci Qarabağ müharibəsində rəşadətli ordumuzun həyata keçirdiyi hərbi taktika hərb tarixində yenilik hesab olunur. ABŞ Hərbi Akademiyası və Müdafiə Nazirliyi Azərbaycan Ordusunun hərbi taktikasının öyrənilməsi zəruriliyini də vurğulamışdır.

Vətən müharibəsində xalq yumruq kimi birləşdi. Xalqımız öz ordusuna inandı və onunla bir oldu. Müharibədə qazandığımız qələbəni şərtləndirən ən əsas amillərdən biri də xalq – iqtidar – ordu birliyi oldu. Bu gün də dövlət siyasəti xalq tərəfindən dəstəklənir. Xalqımızın Prezident İlham Əliyevə inamı və dəstəyi Azərbaycan dövlətini daha böyük qələbələrə aparacaq. Bu qələbələri bizə bəxş edən güclü, qüvvətli ordumuz var. Torpaqlarımızı düşməndən azad edən yenilməz ordu. Dövlət başçımız da bunu Kəlbəcərdə yeni hərbi hissənin açılışındakı çıxışında diqqətə çatdırdı: "Biz bütün dünyaya sübut etmişik ki, biz böyük xalqıq. Qarabağ hər zaman Azərbaycan torpağı olub – işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də. Qarabağ Azərbaycandır!"

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***BDU-nun kafedra müdiri,***
***professor***